# Təşəbbüskar ölkə, etibarlı tərəfdaş

## Azərbaycan Avropa ilə Asiya arasında siyasi-iqtisadi körpü yaradıb

**İtaliyada keçirilən Beynəlxalq Çernobbio Forumunda jurnalistlərin suallarını cavablandıran Macarıstanın Baş naziri Viktor Orban Azərbaycanı Avropa İttifaqı üçün strateji əhəmiyyətli ölkə adlandırıb. Macarıstan hökumətinin başçısı deyib ki, Azərbaycan Avropa ilə sıx əməkdaşlıq edir. Hazırda Azərbaycan strateji əhəmiyyətə malik ölkəyə çevrilib. Ona görə də Avropa Şurasının sədri kimi, Macarıstan Azərbaycanla strateji əməkdaşlığın inkişafını dəstəkləyir.**



Məsələ ilə bağlı "Azərbaycan" qəzetinə açıqlamasında siyasi ekspert Aydın Hüseynov deyib ki, Azərbaycan Avropa üçün xüsusi əhəmiyyət daşıyan ölkədir. Ölkəmiz həm iqtisadi-enerji resursları, həm də coğrafi mövqeyi, tranzit imkanları baxımından bölgədə aparıcı yer tutur.

Onun sözlərinə görə, Azərbaycanın yürütdüyü enerji siyasəti qarşılıqlı əməkdaşlığa, rifaha və həmrəyliyə xidmət edir. Enerji sahəsində ölkəmizlə tərəfdaş olan dövlətlərin sayı artmaqdadır. "Cənub qaz dəhlizi" boru kəməri Avropanın enerji təhlükəsizliyini təmin edir. Hazırda Avropanın 10 ölkəsi Azərbaycandan qaz alır və onlardan 7-si Avropa İttifaqının üzvüdür. Bu səbəbdən Avropa Komissiyası Azərbaycanı ümumavropa qaz təchizatçısı və etibarlı tərəfdaş adlandırır.

Azərbaycanın strateji əhəmiyyətə malik ölkəyə çevrilməsini Avropanın bəzi liderləri etiraf edir. Bunu xatırladan A.Hüseynov bildirib ki, bu günlərdə İtaliyada bu fikir mötəbər səviyyədə bir daha bəyan olunub: "Azərbaycanın yaxın strateji tərəfdaşı olan Macarıstanın dövlət başçısı Viktor Orbanın da bildirdiyi kimi, Bakı ilə əlaqələrə mane olan Avropadakı bəzi qüvvələrin cəhdləri məntiqsizdir. Avropa Şurasının sədri kimi, Azərbaycanla strateji əməkdaşlığın inkişafını dəstəkləyən Macarıstanın bu səyləri Avropa İttifaqı-Azərbaycan əlaqələrinin daha da möhkəmlənməsinə səbəb ola bilər. Çünki Azərbaycan həm təşəbbüskar, həm təchizatçı, həm də beynəlxalq enerji koalisiyasının coğrafiyasını genişləndirən, Avropa ilə Asiya arasında körpü yaradan dövlətdir".

Müsahibimiz qeyd edib ki, məqsəd və məram bütün bölgə ölkələrini sülh ailəsində birləşdirməkdir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bütün bu məsələlər geosiyasət və regional əməkdaşlıq ilə sıx əlaqədardır. Bizim bütün enerji layihələrimiz əməkdaşlığa aparır, bu layihələr dövlətləri birləşdirir. Bu, müştərək maraqdır. Burada uduzan tərəf yoxdur və enerji sülhə doğru aparır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 12 sentyabr (№198).- S.5.